SPORT-ENT
Sport & Entrepreneurship

# İDMAN VƏ SAHİBKARLIQ

## SORĞU HESABATI

SPORT-ENT layihəsi üçün

hazırlanmışdır

Hazırladı:

Sloveniya Futbol Assosiasiyası, Layihə Rəhbəri

*Oktyabr, 2020-ci il*

Avropa Birliyinin Erasmus+
Proqramı tərəfindən birgə
maliyyələşdirilmişdir

# Mündəricat


**1 Qısa xülasə** ... 3

**2 Ümumi məlumat və məqsədlər** ... 4

2.1 "İkili karyera" haqqında Avropa Birliyinin təlimatları ... 4

2.2 SPORT-ENT layihəsi ... 5

**3 Metodologiya** ... 6

**4 Nəticələr və təhlil** ... 7

4.1 Demoqrafik göstəricilər ... 7

4.2 Cari məşğulluq vəziyyəti ... 9

4.3 Gələcək karyera ... 10

4.4 Sahibkarlığa münasibət ... 13

4.5 Sahibkarlıq təliminə maraq ... 16

4.6 Təlimlə bağlı istəklər ... 17

**5 Nəticə və tövsiyələr** ... 20

# 1 Qısa xülasə

Avropanın 6 milli futbol assosiasiyasından olan təxminən 400 gənc futbolçu arasında aparılan beynəlxalq sorğu zamanı oyunçulara ikinci karyeralarına münasibətləri ilə bağlı suallar verilmişdir.

Hədəf qrup peşəkar və yarı-peşəkar komandalarda və futbol liqalarında hal-hazırda çıxış edən 18-30 yaşlı futbolçulardan ibarət olmuşdur.

Sorğu 2020-ci ilin iyul ayında 395 futbolçu arasında aparılmışdır. Peşəkar və yarı-peşəkar futbolçular üçün nəzərdə tutulmuş onlayn kəmiyyət sorğusu hazırlanmış və ölkələrdən olan futbolçular arasında keçirilmişdir.

Sorğunun 328 iştirakçısı sualları tam cavablandırmışdır və həmin cavablar hazırkı hesabatda təhlil edilir. Respondentlər əsasən:

- Sloveniya (37%; 122 nəfər), Şimali Makedoniya (32%; 106 nəfər) və Azərbaycan (18%; 60 nəfər) sakinləri olmuş,
- kişi cinsindən (83%; 273 nəfər) olmuş,
- 16-30 yaşlı (89%; 293 nəfər) olmuş,
- əksəriyyəti (58%; 135 nəfər) tam-ştat işçi olmaqla, futbol oynadıqlarına görə klubları tərəfindən ödənişlə təmin olunmuşdur (73%; 240 nəfər).

Sorğu məhz hal-hazırda çıxış edən gənc futbolçuların futbolu bitirəndən sonrakı karyeraları barədə fikirlərini əldə etmək üçün hazırlanmışdır.

Sorğunun nəticələri göstərir ki, futbolçular sahibkar (istər mütəxəssis, istər ictimai və təhsil proqramlarını təşkil edən və ya qeyri-kommersiya təşkilatlarını idarə edən sahibkar, istər startaplara sərmayə yatıran sahibkar, istərsə də innovativ məhsul, xidmət və texnologiyalar yaradan sahibkar) olmaqda maraqlıdırlar. Oyunçular sahibkarlıq fəaliyyətləri zamanı intizam, komanda işi, səbirlilik, hörmət və dayanıqlılıq kimi müxtəlif bacarıqlarından faydalana bilərlər.

Sorğunun nəticələri nəzərə alınmaqla tövsiyə olunur ki, futbolçulara sahibkarlıq sahəsində təlim keçilsin. Burada məqsəd onların futbol karyerasından sonra alternativ peşə imkanı ilə təmin olunması və ya futbolçu olduqları müddətdə idman sahəsinə biznes nöqteyi-nəzərindən yanaşmaq qabiliyyətinin formalaşdırılmasıdır. Onlar futboldan sonrakı karyeraları ilə bağlı mentorluq dəstəyinin göstərilməsini yüksək qiymətləndirir və sahibkarlıq mövzusundakı təlimlərə vaxt ayırmağa həvəslidirlər. Sahibkar olmaq iqtisadi baxımdan gəlir əldə etmək imkanı ilə yanaşı, peşəkar inkişaf imkanı da yaradır ki, bu da oyunçuları bu cür təlim kurslarında iştiraka sövq edən əsas amildir.

Bu hesabatın əsas bölmələri aşağıdakılardan ibarətdir:

- layihə barədə ümumi məlumat və onun məqsədləri,
- layihə üçün istifadə edilən metodologiya,
- sorğunun nəticələri,
- həmin nəticələrin təhlili,
- çıxarılan nəticələr və tövsiyələr.

# 2 Ümumi məlumat və məqsədlər

## 2.1 "İkili karyera" haqqında Avropa Birliyinin təlimatları

Avropada məşq edən və çıxış edən yüksək səviyyəli atletlər çoxsaylı risklərlə üzləşirlər. Onların çoxu futbol karyerasını bitirəndən sonra yeni karyeraya hazırlaşmaqda onlara kömək edə biləcək yüksək səviyyəli təhsil və təlim almaq imkanından məhrum olurlar. Avropa Birliyi Şurasının "ikili karyera" məsələsinin həlli ilə bağlı 2008-ci ildə etdiyi çağırışına cavab olaraq, Komissiya yüksək səviyyəli atletlərin zamanı gələndə idmandan başqa fəaliyyət sahəsinə rahat keçidi üçün onlara lazım olan bacarıq və biliklərə sahib olmasını təmin etmək istiqamətində fəaliyyət göstərir.

Avropa məşğulluq siyasəti Üzv Dövlətləri fiziki şəxslər üçün iş imkanları yaratmaq istiqamətində işləməyə və xüsusilə də keyfiyyəti artırmaq, təchizatı genişləndirmək, əlçatanlığı şaxələndirmək və yeni peşə ehtiyacları və bacarıqları ilə bağlı tələblərə çevik və operativ cavab verilməsini təmin etmək üçün təhsil və təlim sistemlərini uyğunlaşdırmaqla işsizliyi azaltmağa çağırmışdır.

"İkili karyera" atletin hədsiz əmək sərf etmədən öz idman karyerası və təhsili ilə paralel məşğul ola bilməsi və/ya bu hədəflərdən heç birinə (…) xələl gətirmədən çevik formada (…) işləyə bilməsi kimi başa düşülməlidir. Atletlər üçün ikili karyeralar üzrə Şuranın və Şura çərçivəsində bir araya gələn Üzv Dövlətlərin Hökumət Nümayəndələrinin gəldiyi nəticələr (2013/C 168/04).

Elit səviyyəli idmanda karyera qısa, davamsız və vaxt aparan olur. Ən uğurlu peşəkar idmançılar təxminən 30 yaşında karyerasını bitirməli olur və buna görə də, özü üçün həyatda yeni iş və rol tapmaq ehtiyacı ilə üzləşir. Peşəkar səviyyəyə çata bilməyən təcrübəçilər və karyera bitirici zədə alan oyunçular üçün vəziyyət daha çətin olur. İşin xüsusiyyətləri (məs. qısamüddətli müqavilələr, tez-tez səyahət etmə və s.), tez bir zamanda uğurun əldə olunması ilə bağlı gözləntilər və öz peşəsinə həddən artıq bağlılıq idmandan sonrakı həyata hazırlığa mane olur.

Komissiyanın ikili karyeralara dəstəyi idmançıların idman məşqləri ilə yanaşı təhsil və/ya peşə təlimləri almasını təmin edir. Bu dəstək həmçinin Avropa atletlərinə yaxşı çıxış etməkdə və yüksək beynəlxalq səviyyədə mübarizə aparmaqda kömək edəcək və məktəbi, universiteti və idmanı yarımçıq qoyanların sayını azaldacaqdır.

Elit səviyyəli atletlərin çoxu öz idman karyeralarının sonuna çatanda karyera keçidinə hazırlıqlı olmur. İdman karyerası ərzində və ondan sonra ikinci karyeraya uğurlu keçidə kömək edən xüsusi təhsil imkanları və dəstək xidmətləri olduqca böyük əhəmiyyət kəsb edir.

Şuranın 2009-cu ildə müəyyən etdiyi Təhsil və Təlim sahəsində 2020-ci il üçün strateji hədəflərə və 2015-ci ildə qəbul olunmuş təhsil və təlim üzrə Avropa əməkdaşlığına dair Yeni Prioritetlərə əsasən, Sahibkarlıq vacib özünüməşğulluq seçimi olaraq qalır və insanlar arasında lazımi qaydada təşviq və təbliğ edilməli olan istifadə olunmamış potensiala malik olur. Sahibkarlıq təkcə şəxsi özünüməşğulluq seçimi deyil. Yeni sahibkarlıq fəaliyyəti uğurla inkişaf edərsə, o, əmək bazarına da müsbət təsir edə bilər.

İkili karyera mexanizmləri Üzv Dövlətlərin əksərində və idman sahəsində nisbətən yeni bir istiqamətdir. Bu mexanizmlərin artıq bir müddətdir ki inkişaf etdirildiyi Üzv Dövlətlərdə isə bəzən idman sistemi ilə ya təhsil sektoru, ya da əmək bazarı arasında ciddi uyğunlaşdırmalar aparılmır. Avropa Birliyinin maliyyələşdirdiyi tədqiqatların nəticələri, 2009-cu il tarixli "İdman sahəsində Hazırlıq Tədbirləri" proqramı çərçivəsində dəstəklənən ikili karyera layihələrinin nəticələri və Üzv Dövlətlərlə aparılan qeyri-rəsmi xarakterli ekspert görüşləri Avropa Birliyi Şurasının öz 2011-ci il yanvar tarixli "İdman haqqında məlumat"ında ikili karyeralarla bağlı təlimatların hazırlanmasını təklif etməsinə gətirib çıxarmışdır. Şura öz "Avropa Birliyinin idman üzrə 2011-2014-cü illərə aid İş Planı" haqqında Qətnaməsində bu təlimatların hazırlanmasını prioritet hesab etməyi qərara almışdır.

"Atletlərin ikili karyeraları haqqında Avropa Birliyinin təlimatları: böyük idman sahəsində ikili karyeralara dəstək üzrə tövsiyə olunan siyasət tədbirləri (2012)" adlı sənədə əsasən, "... İkili karyera proqramlarının tərtibatı atletlərin yaşı, ixtisaslaşdığı idman sahəsi, karyera mərhələsi və maliyyə vəziyyəti nəzərə alınmaqla onların fərdi ehtiyaclarına cavab verməli, atletlər özləri isə karyeralarının gedişində bu istiqamətdə məsuliyyəti daha çox öz üzərinə götürməlidir..."

## 2.2 SPORT-ENT layihəsi

Avropa Birliyinin maliyyələşdirdiyi SPORT-ENT layihəsi məhz bu məsələ ilə məşğul olur, lakin buraya idmanda (futbolu nümunə kimi götürərək) öyrənilmiş mövcud bacarıq və səriştələrə əsaslanan "sahibkarlıq təlimi vasitəsilə özünüməşğulluğa hazırlıq" komponenti də əlavə edir. Bu komponenti uyğunlaşdıraraq istənilən idmana tətbiq etmək mümkündür.

Sahibkarla futbolçu arasındakı aşkar oxşarlıqlar mövcuddur. Bu sahələrin hər birində (biznes ofisi və ya idman meydançası) uğur qazanmaq üçün iştirakçı öz güclü cəhətlərindən maksimum istifadə etməyi və zəif cəhətlərini neytrallaşdırmağı bacarmalıdır. Bu iki sahənin bir araya gətirilməsi innovativ və unikal bir hadisədir və fərdlərin sahibkar kimi uğur qazanması üçün müvafiq intellektual hazırlığı və səriştələri təmin edəcəkdir. Onlar lazımi bilikləri "qarışıq öyrənmə" yanaşmasından istifadə etməklə öyrənə bilərlər – praktiki yanaşmanı futbol klubunda, nəzəri yanaşmanı isə onlayn təlim proqramından istifadə etməklə öyrənərək.

Futbolçu üçün öz malik olduğu konkret güclü cəhətləri bilməsi bu oyunda uğur qazanması üçün zəruridir. Solaxay zərbə vurmağı bacaran futbolçu hesabın bərabər olduğu və topun qapıçı meydançasında olduğu anda əsas oyunçu olur. Dörd dövrəlik yarışın son dövrəsinə qədər enerji ehtiyatı saxlaya bilən qaçışçı təngnəfəs olmuş digər qaçışçılar üzərində üstünlüyə malik olur.

Sahibkar üçün isə öz malik olduğu güclü cəhətləri bilməsi eyni dərəcədə vacibdir. Yeni müştəriləri cəlb etməyi bacaran iş adamı bütün günü ofisdə qalarsa, inkişaf etməz. Milyon dollarlıq müqavilələrin bağlanmasını əminliklə istəməyi bacaran satış təmsilçisi təqdimatlar etmək imkanı ilə təmin olunanda inkişaf edir.

Layihə sahibkarlıq bacarıqlarının və səriştələrinin inkişaf etdirilməsi yolu ilə idmanla məşğul olan şəxslər (18-30 yaşlı) üçün məşğulluq imkanlarını artırmaq baxımından real

imkanların yaradılması üçün TƏLİM VƏ DƏSTƏK MATERİALLARI dəstinin hazırlanmasını qarşıya məqsəd qoymuşdur. Bu hədəfə sahibkarlıq və idman sahələrinin bir-birini tamamlayan və üst-üstə düşən cəhətlərindən istifadə edərək ikili karyera imkanlarını gücləndirməklə nail olunacaqdır. Digər idman növlərinə uyğunlaşdırılması və tətbiq olunması üçün “metodoloji şablon” kimi futboldan istifadə ediləcəkdir.

# 3 Metodologiya

Məlumatların toplanması ənənəvi sorğu metodundan istifadə etməklə həyata keçirilmişdir. Layihə Tərəfdaşları ilə əməkdaşlıq şəraitində peşəkar və yarımpeşəkar futbolçular üçün nəzərdə tutulmuş onlayn kəmiyyət sorğusu hazırlanmışdır.

Sorğu vərəqəsinin layihə versiyası ilkin sınaqdan keçirilmiş və nəticədə sorğu vərəqəsinə həm mətn, həm də həcm baxımından dəyişikliklər edilmişdir. Sorğu vərəqəsinin yekun versiyasında iyirmi iki (22) sualın olması razılaşdırılmışdır. Sualların geniş yayılmış formalarından (o cümlədən, çoxvariantlı sual, qiymətləndirmə şkalası və s.) istifadə olunmuşdur.

Sorğu vərəqəsi 6 müxtəlif dilə tərcümə edilmiş və onlayn sorğu platformasına yerləşdirilmiş, elektron poçt vasitəsilə yayılmış və layihənin rəsmi veb-saytında, eləcə də milli assosiasiyaların veb-saytlarında dərc edilmişdir. Suallar futbolçulara birbaşa milli futbol assosiasiyaları tərəfindən və ya futbol klubları vasitəsilə paylanmışdır.

Respondentin yaşadığı ölkə, cinsi və yaşı kimi demoqrafik məlumatlar toplanmışdır.

İştirakçılara futbolçu kimi cari məşğulluq statusları, ikinci karyeraları ilə bağlı şəxsi mövqeləri, futbolu başa vurandan sonrakı əmək məşğuliyyətlərinə münasibətləri barədə suallar verilmişdir.

Məsələn, iştirakçılara aşağıdakı suallar verilmişdir:

- Klubunuz futbol oynadığınıza görə sizə ödəniş edirmi? Siz hansı əsasda ödəniş alırsınız (tam-ştat yoxsa yarım-ştat)?
- Hansı yaşda futboldan gedəcəyinizi düşünürsünüz? Daha futbol oynamadığınız zaman nə ilə məşğul olacağınız barədə fikirləşmisiniz?
- İdmançı karyeranızdan sonra davam etdirəcəyiniz hər hansı karyeranız vardırmı? Siz sahibkar olmaq ehtimalını nəzərdən keçirmisiniz?
- Futboldan sonrakı karyera ilə bağlı məsləhətlər baxımından Klubunuz sizə dəstək olurmu? Peşəkar futbolu bitirəndə hansı məşğulluq seçimlərinizin olduğunu başa düşməkdə sizə kömək məqsədilə mentorluq dəstəyi ilə təmin olunmağınız faydalı olardımı?

İştirakçılara sual verilib ki, futbolçu karyeralarından sonra sahibkar olmaq ehtimalını nəzərdən keçirirlərmi, sahibkarlıq fəaliyyətinə nə zaman başlamağı nəzərdən keçirərdilər və gələcəkdə onlar üçün hansı sahibkarlıq profili (mütəxəssis sahibkar, sosial sahibkar, sərmayəçi sahibkar, innovativ sahibkar) daha uyğun olardı.

Daha sonra, sorğu iştirakçılarına sahibkarlıq mövzusunda kurs keçmək istəyib-istəmədikləri, bunun onlara necə kömək edəcəyi barədə fikirləri və onları təlim keçməyə ən çox sövq edən amilin nə olduğu barədə suallar verilmişdir.

İştirakçılara həmçinin təlimlə bağlı istəkləri barədə aşağıdakı suallar verilmişdir:

- Təlimin hansı formada keçilməsini istərdiniz (üzbəüz, onlayn yoxsa "qarışıq öyrənmə" metodu ilə)?
- Kursun hansı müddətdə davam etməsini istərdiniz (3 ay, 6 ay yoxsa 1 il)?
- Hər gün təlimə nə qədər vaxt ayırmaq istərdiniz (1 saat, 2 saat yoxsa 4 saat)?
- Sizin üstünlük verdiyiniz təlim forması hansıdır (praktiki, vizual, audio yoxsa oxuma-yazma)?

# 4 Nəticələr və təhlil

Hesabatın bu bölməsində sorğuya cavab verən futbolçuların (yəni, respondentlərin) rəyləri təqdim olunur.

Sorğuda üç yüz doxsan beş (395) futbolçu iştirak etmişdir. Respondentlərin üç yüz iyirmi səkkiz (328) nəfəri sorğunu tamamlamışdır (tamamlama faizi – 83%). Bu hesabatdakı hər bir cədvəl üçün baza qismində bütün tam cavablar götürülmüşdür (328 nəfərin cavabları). Hər bir iştirakçının sorğunu tamamlamaq üçün sərf etdiyi simvolik vaxt 4 dəqiqə olmuşdur.

Bölmə aşağıdakı mövzular barədə daha geniş məlumatın təqdim olunduğu alt-bölmələrə bölünür:

- respondentlərin demoqrafik göstəriciləri,
- onların cari məşğulluq vəziyyəti,
- gələcək karyera ilə bağlı hazırda mövcud olan baxışlar və imkanlar,
- respondentlərin sahibkarlığa münasibəti,
- onların sahibkarlıq təliminə maraqları,
- onların təlimlə bağlı istəkləri.

## 4.1 Demoqrafik göstəricilər

Respondentlər **Avropanın 11 müxtəlif ölkəsinin** sakinləri olmuşdur.

**Respondentlərin əksəriyyəti Sloveniya (37%; 122 nəfər), Şimali Makedoniya (32%; 106 nəfər) və Azərbaycan (18%; 60 nəfər) sakinləridir.** Respondentlərin 7%-i (23 nəfər) Moldova, 2%-i (6 nəfər) Qazaxıstan, 2%-i (6 nəfər) Belarus, 2%-i isə Belçika, Çexiya, Monako, Rusiya və Portuqaliya (hər ölkədən 1 respondent) sakinləri olmuşdur.

*Cədvəl 1: Sual 1: Respondentlərin yaşadığı ölkələrə görə bölgü (faiz).*




**Respondentləri əksəriyyəti (83%-i; 273 nəfər) kişi cinsindən olmuşdur.**

*Cədvəl 2: Sual 2: Cinsə görə bölgü (faiz).*




**Respondentlərin 89%-i 16-30 yaşında olmuş**, bunların isə yarısının yaşı 20-dən az, digər yarısının isə yaşı 20-dən çox olmuşdur.

*Cədvəl 3: Sual 3: Yaşa görə bölgü (faiz).*




## 4.2 Cari məşğulluq vəziyyəti

**Respondentlərin 73%-i (240 nəfər) futbol oynadığına görə ödəniş alır.** Ödəniş alanların 58%-i tam-ştat işçi kimi ödəniş alır. Qalanları isə yarım-ştat işçi kimi ödəniş alır – onların əksəri üçün **(67%) futbol əsas gəlir mənbəyidir,** yarım-ştat işçi olan futbolçuların 33%-i üçün isə futbol ikinci dərəcəli qazanc mənbəyidir.

*Cədvəl 4: Sual 4: Klubunuz futbol oynadığınıza görə sizə ödəniş edirmi?*



*Cədvəl 5: Sual 5: Ödəniş alırsınızsa, hansı əsasda ödəniş alırsınız?*




## 4.3 Gələcək karyera

**Oyunçuların 48%-i (158 nəfər) 35 yaşında,** 31%-i (101 nəfər) 40 yaşında, qalanları isə 30 və ya hətta 25 yaşından əvvəl **futboldan gedəcəklərini hesab etdikləri barədə cavab vermişdirlər.**

*Cədvəl 6: Sual 6: Hansı yaşda futboldan gedəcəyinizi düşünürsünüz?*

| CAVAB SEÇİMLƏRİ | CAVABLAR | |
|---|---|---|
| 40 | 31% | 101 |
| 35 | 48% | 158 |
| 30 | 12% | 39 |
| 25 | 9% | 30 |
| CƏMİ | | 328 |

**Respondentləri əksəriyyəti (61%; 199 nəfər) futboldan gedəndən sonra idman sahəsində işləməyə davam etmək istəyir.** Onların 22%-i (72 nəfər) idmanla bağlı olmayan sahədə işləmək istəyir, 17%-i (57 nəfər) isə özünüməşğulluq barədə düşünür. **Respondentlərin 52%-i (169 nəfər) idman karyeralarından sonra davam etdirəcəkləri karyeraya malikdir**, 48%-i (159 nəfər) isə hələ belə bir karyeraya malik deyil.

*Cədvəl 7: Sual 7: Daha futbol oynamadığınız zaman nə ilə məşğul olacağınız barədə fikirləşmisiniz?*




*Cədvəl 8: Sual 8: İdmançı karyeranızdan sonra davam etdirəcəyiniz hər hansı karyeranız vardırmı?*




**Respondentlərin 57%-nə (188 nəfər) futboldan sonrakı karyera ilə bağlı məsləhətlər baxımından dəstəyi onların klubu verir,** qalanlara (43%; 140 nəfər) bu cür dəstək göstərilmir. **Onların böyük əksəriyyəti (87%; 284 nəfər) hesab edir ki,** peşəkar futbolu bitirəndə hansı məşğulluq seçimlərinin olduğunu başa düşməkdə onlara kömək məqsədilə **mentorluq dəstəyi ilə təmin olunmaları faydalı olardı**.

*Cədvəl 9: Sual 9: Futboldan sonrakı karyera ilə bağlı məsləhətlər baxımından Klubunuz sizə dəstək olurmu/məsləhət verirmi?*




*Cədvəl 10: Sual 10: Peşəkar futbolu bitirəndə hansı məşğulluq seçimlərinizin olduğunu başa düşməkdə sizə kömək məqsədilə mentorluq dəstəyi ilə təmin olunmağınız faydalı olardımı?*



## 4.4 Sahibkarlığa münasibət

Respondentlərin böyük əksəriyyəti **(87%; 288 nəfər) sahibkar olmağa maraqlarını ifadə etmişdirlər.**

**Respondentlərin çoxu (73%; 241 nəfər)** futbolçu karyeralarından sonra **sahibkar olmaq ehtimalını artıq nəzərdən keçiriblər** (idman sahəsində və ya digər sahədə).

**Onların 45%-i (146 nəfər) idman karyeraları başa çatanda** sahibkarlıq fəaliyyətinə başlamağı nəzərdən keçirə biləcəklərini, **36%-i (119 nəfər)** isə sahibkarlığa **idman karyeraları ilə paralel olaraq** başlamağı sınaqdan keçirə biləcəklərini bildiriblər. Onların 2%-i (6 nəfər) artıq sahibkardırlar. Respondentlərin 4%-i (14 nəfər) həmişə bunu etmək istəmiş, lakin vaxt tapa bilməmişdir, 12%-i (40 nəfər) isə nə vaxtsa sahibkar olacağını düşünmür.

*Cədvəl 11: Sual 11: Futbolçu karyeranızdan sonra (idman sahəsində və ya digər sahədə) sahibkar olmaq ehtimalını nə vaxtsa nəzərdən keçirmisiniz?*




*Cədvəl 12: Sual 12: Sahibkarlıq fəaliyyətinə başlamağı nə zaman nəzərdən keçirərdiniz?*

| CAVAB SEÇİMLƏRİ | CAVABLAR | |
|---|---|---|
| İdman karyeramı bitirəndə | 45% | 149 |
| İdman karyerama paralel olaraq başlamağı sınaqdan keçirə bilərəm | 36% | 119 |
| Nə vaxtsa başlayacağımı düşünmürəm | 12% | 40 |
| Bunu etməyi həmişə istəmişəm, amma vaxt tapmamışam | 4% | 14 |
| Mən artıq sahibkaram | 2% | 6 |
| CƏMİ | | 328 |

Respondentlər müxtəlif bacarıqların biznesə başlamaq üçün nə dərəcədə faydalı olmasını 1 (faydasız)-5 (çox faydalı) ballıq şkala üzrə qiymətləndirmişdir. Respondentlərin əksəriyyəti (69% və ya daha çox) bacarıqların hər birini çox faydalı olaraq qiymətləndirmişdir. **Biznesə başlamaq üçün ən yüksək qiymətləndirilən bacarıq intizam (orta bal – 4,73) olmuş**, onun ardınca isə komanda işi, səbirlilik, hörmət və dayanıqlılıq gəlmişdir.

*Cədvəl 13: Sual 13: Siz aşağıdakı bacarıqları biznesə başlamaq üçün nə dərəcədə faydalı hesab edirsiniz? (1-faydasız, 5-çox faydalı)*




| | 1 | 2 | 3 | 4 | 5 | CƏMİ | ORTA BAL |
|---|---|---|---|---|---|---|---|
| İntizam | 0.91%<br>3 | 1.52%<br>5 | 2.44%<br>8 | 13.72%<br>45 | 81.40%<br>267 | 328 | 4.73 |
| Komanda işi | 1.83%<br>6 | 1.22%<br>4 | 2.44%<br>8 | 16.46%<br>54 | 78.05%<br>256 | 328 | 4.68 |
| Səbirlilik | 1.52%<br>5 | 1.52%<br>5 | 4.27%<br>14 | 18.60%<br>61 | 74.09%<br>243 | 328 | 4.62 |
| Hörmət | 1.22%<br>4 | 1.52%<br>5 | 4.88%<br>16 | 20.12%<br>66 | 72.26%<br>237 | 328 | 4.61 |
| Dayanıqlılıq (məyusluğa dözümlülük) | 1.52%<br>5 | 0.91%<br>3 | 8.84%<br>29 | 20.12%<br>66 | 68.60%<br>225 | 328 | 4.53 |

**Müxtəlif sahibkarlıq profillərindən, respondentlərin 37%-i mütəxəssis sahibkar, 29%-i sosial sahibkar, 28%-i sərmayəçi sahibkar, 26%-i isə innovativ sahibkar profilini seçmişdir.**

*Cədvəl 14: Sual 14: Sizcə, aşağıdakı sahibkarlıq profillərindən hansı gələcəkdə sizin üçün daha uyğun olardı?*

| CAVAB SEÇİMLƏRİ | CAVABLAR | |
|---|---|---|
| Mütəxəssis sahibkar (ekspert) | 37% | 122 |
| Sosial sahibkar (icma layihələrini, maarifləndirici proqramları icra edən, qeyri-kommersiya təşkilatlarını idarə edən və s.) | 29% | 94 |
| Sərmayəçi sahibkar (öz imkanlarından başqa imkanlara, məsələn, startaplara sərmayə yatıran) | 28% | 92 |
| İnnovativ sahibkar (innovativ məhsul, xidmət və texnologiyalar yaradan) | 26% | 84 |
| **Respondentlərin cəmi sayı: 328** | | |

## 4.5 Sahibkarlıq təliminə maraq

Respondentlərin **73%-i (240 nəfər)** bildiriblər ki, sahibkarlıq mövzusunda **kurs/təlim keçmək istərdilər**. Respondentlərin **43%-i (140 nəfər)** sahibkarlıq təliminin onların **mümkün alternativ peşəyə** yiyələnməsinə kömək edəcəyini, **33%-i (108 nəfər)** isə sahibkarlıq təliminin **idman sahəsinə biznes nöqteyi-nəzərindən yanaşmaqda** onlara kömək edəcəyini düşünür. Onların 21%-i (70 nəfər) təlimin onlara necə kömək edəcəyini bilmir, 3%-i (10 nəfər) isə bunun onlara qətiyyən kömək etməyəcəyini hesab edir.

Oyunçuları sahibkarlıq sahəsində təlim keçməyə sövq edən əsas amil **peşəkar inkişaf ehtimalı (51%; 168 nəfər) və iqtisadi gəlir əldə etmək imkanıdır (50%; 164 nəfər).** Respondentlərin 15%-i (48 nəfər) bu amilin əmək bazarındakı çətinliklər ola biləcəyini hesab edir, 7%-i (22 nəfər) isə heç bir amilin onları sahibkarlıq sahəsində təlim keçməyə sövq etmədiyini bildiriblər.

*Sual 15: Sahibkarlıq mövzusunda kurs/təlim keçmək istərdinizmi?*




*Cədvəl 16: Sual 16: Sahibkarlıq təliminin sizə necə kömək edəcəyini düşünürsünüz?*

| CAVAB SEÇİMLƏRİ | CAVABLAR | |
|---|---|---|
| Mümkün alternativ peşə imkanı | 43% | 140 |
| Mən idman sahəsinə biznes nöqteyi-nəzərindən yanaşaram | 33% | 108 |
| Bunun mənə necə kömək edəcəyindən əmin deyiləm | 21% | 70 |
| Bu, mənə qətiyyən kömək etməz | 3% | 10 |
| CƏMİ | | 328 |

*Cədvəl 17: Sual 17: Hansı amil sizi sahibkarlıq sahəsində təlim keçməyə ən çox sövq edər?*

| CAVAB SEÇİMLƏRİ | CAVABLAR | |
|---|---|---|
| Peşəkar inkişaf ehtimalı | 51% | 168 |
| İqtisadi gəlir əldə etmək imkanı | 50% | 164 |
| Əmək bazarındakı çətinliklər | 15% | 48 |
| Məni sahibkarlıq təlimi keçməyə heç bir amil sövq etmir | 7% | 22 |
| **Respondentlərin cəmi sayı: 328** | | |

## 4.6 Təlimlə bağlı istəklər[1]

Respondentlərin 11%-i (27 nəfər) onlayn təlimə (məs. mobil telefonla/planşetlə), 41%-i (98 nəfər) isə üzbəüz təlimə üstünlük verir. **Respondentlərin çoxu (48%; 115 nəfər) "qarışıq öyrənmə" metoduna (onlayn və üzbəüz) üstünlük verir.**

*Cədvəl 18: Sual 18: Təlimin hansı formada keçilməsini istərdiniz?*




**Respondentlərin çoxu (52%; 124 nəfər) kursun 3 ay,** 31%-i (75 nəfər) 6 ay, 17%-i isə 1 il davam etməsini istədiyini bildirib. **Onların çoxu (57%; 136 nəfər) hər gün 2 saat**, 34%-i (81 nəfər) 1 saat, 10%-i (23 nəfər) isə 4 saat vaxt ayıra biləcəyini bildirib.

[1] Bu bölmədə yalnız 15-ci suala (Sahibkarlıq mövzusunda kurs/təlim keçmək istərdinizmi?) "bəli" cavabını verən iştirakçıların (240 nəfər) təlimlə bağlı istəkləri təhlil olunmuşdur.

*Cədvəl 19: Sual 19: Hansısa kursa yazılsanız, bu kursun nə qədər davam etməsini istərdiniz?*




*Cədvəl 20: Sual 20: Təlimə hər gün nə qədər vaxt ayırmaq istərdiniz?*



**Respondentlərin 70%-i (169 nəfər) üstünlük verdikləri təlim forması kimi praktiki**, 40%-i (96 nəfər) vizual, 25%-i (60 nəfər) audial, 20%-i (47 nəfər) isə oxuma-yazma formasında təlimi seçmişdir.

*Cədvəl 21: Sual 21: Sizin üstünlük verdiyiniz təlim forması hansıdır?*




| CAVAB SEÇİMLƏRİ | CAVABLAR | |
|---|---|---|
| Praktiki | 70% | 169 |
| Vizual | 40% | 96 |
| Audial | 25% | 60 |
| Oxuma-yazma | 20% | 47 |
| Respondentlərin cəmi sayı: 240 | | |

# 5 Nəticə və tövsiyələr

Bu layihədə əldə olunan sorğu məlumatlarının təhlili göstərmişdir ki, peşəkar və yarımpeşəkar gənclər liqalarında futbol oynamaq gənc futbolçular üçün gəlir mənbəyi (əsas və ya ikinci dərəcəli) rolunu oynayır və bu gəlir əksər hallarda 35 yaşdan sonra onların futbol karyeraları ilə birlikdə başa çatır.

Futbolçular sahibkar (istər mütəxəssis sahibkar, istər icma proqramlarını, maarifləndirici proqramları icra edən və ya qeyri-kommersiya təşkilatlarını idarə edən sahibkar, istər startaplara sərmayə yatıran sahibkar, istərsə də innovativ məhsul, xidmət və texnologiyalar yaradan sahibkar) olmaqda maraqlıdırlar. Onların çoxu futbol karyeralarından sonra sahibkar olmağı artıq nəzərdən keçirmişdir və oyunçuların sahibkarlıq fəaliyyətinə idman karyeraları ilə paralel olaraq başlamaq imkanı ilə təmin olunması da tövsiyə olunur.

Klublar idmandan sonrakı karyera ilə bağlı məsləhətlər baxımından dəstəyi təmin edir, lakin peşəkar futbolu bitirəndə hansı məşğulluq seçimlərinin olduğunu başa düşməkdə oyunçulara kömək məqsədilə xüsusi mentorluq dəstəyinin göstərilməsi tövsiyə olunur.

Mümkün alternativ peşəyə yiyələnməkdə və ya idman sahəsinə biznes nöqteyi-nəzərindən yanaşa bilməkdə futbolçulara kömək etmək məqsədilə onlar üçün sahibkarlıq mövzusunda kursun/təlimin keçilməsi tövsiyə olunur. Belə nəticəyə gəlmək olar ki, peşəkar inkişaf ehtimalı və iqtisadi gəlir əldə etmək imkanı oyunçuları sahibkarlıq sahəsində təlim keçməyə ən çox sövq edən amillərdir.

Oyunçuların futbol karyerası və təlimlə çevik və səmərəli formada, hədəflərdən heç birinə xələl gətirmədən paralel məşğul ola bilməsini təmin etmək vacibdir. Buna görə də, sorğunun təlimlə bağlı istəklərə dair nəticələri nəzərə alınmaqla, aşağıdakılar tövsiyə olunur:

- Təlim "qarışıq öyrənmə" metodundan istifadə etməklə, onlayn və üzbəüz seminarların kombinasiyası formasında keçilsin.
- Kurs 3-6 ay davam etsin.
- Gündəlik ayrılan vaxt maksimum 2 saat olsun.
- Praktiki təlim üstünlük verilən təlim forması olsun və əlavə olaraq, audio-vizual materiallar və oxu-yazı materialları təmin olunsun.